

# Qarabağın bərpası prioritet istiqamətdir

***Prezident İlham Əliyev Qarabağ və Şərqi Zəngəzurun yenidən qurulması, bu ərazilərdə həyatın canlanması məqsədilə reallaşdırılan layihələrin icrasını daim diqqətdə saxlayır. Dövlətimizin başçısının işğaldan azad edilən şəhər və rayonlarımıza ardıcıl səfərləri də məhz bununla bağlıdır.***

Bu səfərlər çərçivəsində bərpa ilə əlaqədar qarşıya qoyulan vəzifələr, eyni zamanda, səfərdən sonra həmin ərazilərdə yenidənqurma işlərinin aparılması ilə bağlı imzalanan sənədlər də bu torpaqların qısa müddətdə gülüstana çevriləcəyini, Qarabağ və Şərqi Zəngəzurda yeni regional inkişaf proqramlarının icrasına başlanılacağını şərtləndirir.

Yeri gəlmişkən, ölkə rəhbəri Vətən müharibəsi parlaq qələbəmizlə başa çatandan indiyədək düşməndən təmizlənən ərazilərdə 40-dan çox səfərdə olub, azad edilən rayonlarda strateji infrastruktur obyektlərinin açılışını edib, yenilərinin təməlini qoyub.

**(ardı 3-cü səhifədə)**



# Qarabağın bərpası prioritet istiqamətdir

(əvvəli 1-ci səhifədə)

Dövlətimizin başçısı İkinci Qarabağ müharibəsindən ötən müddətdə Qarabağ və Şərqi Zəngəzurda aparılan tikinti, abadlıq-quruculuq layihələri barədə çıxışlarının birində bildirib: "Deyə bilərəm ki, dünya müharibələrinin tarixində müharibələrdən sonra bu sürətlə heç bir yerdə quruculuq-bərpa işləri aparılmayıb. Bu işlər haqqında Azərbaycan vətəndaşları müntəzəm olaraq məlumatlandırılır. Əgər mən bu haqda danışmağa başlasam, yəqin ki, bir neçə saat vaxt lazım olacaq, hər şey göz qabağındadır. Bizim əsas vəzifəmiz keçmiş köçkünləri tezliklə dədə-baba torpaqlarına qaytarmaqdır və biz buna nail olacağıq".

Hazırda sürətlə reallaşdırılan layihələr nəticəsində düşmənin darmadağın etdiyi şəhər və kəndlərimizə həyat yenidən qayıdır. Azadlığına qovuşan torpaqlarımızda böyük quruculuq və bərpa işləri aparılır. Tikinti-abadlıq tədbirlərinin miqyası getdikcə genişlənir. Lakin minalanmanın böyük əraziləri əhatə etməsi bu yerlərdə bərpa prosesinin sürətini müəyyən qədər ləngidir. Ümumiyyətlə, bu gün Qarabağ və Şərqi Zəngəzurun hər qarışında erməni vəhşiliyini izləri nəzərə çarpır. Şanlı Azərbaycan Ordusu tərəfindən düşməndən təmizlənən şəhər və kəndlərimizin, tarix və mədəniyyət abidələrimizin vandalizmə məruz qaldığı, yerlə-yeksan edildiyi, bir qisminin isə saxtalaşdırılaraq erməniləşdirildiyi diqqət çəkir.

Dövlətimizin başçısı tərəfindən Qarabağda müəyyənləşdirilən tapşırıqların icrası ilə yerində tanış olmaq, müxtəlif dövlət qurumlarının həyata keçirdiyi genişmiqyaslı infrastruktur layihələrinin, tikinti, bərpa, quruculuq və abadlaşdırma işlərinin gedişatına yuxarıda vurğulandığı kimi, mühüm önəm verilir. Bu, əsasən, layihələrin icrasını sürətləndirmək, qarşıya çıxan çətinlikləri aradan qaldırmaq məqsədi daşıyır. Baş nazir Əli Əsədovun və Prezident Administrasiyasının, Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli məqsədilə yaradılan Əlaqələndirmə Qərargahının rəhbəri Samir Nuriyevin başçılığı altında aidiyyəti dövlət qurumlarının rəhbər şəxslərindən ibarət nümayəndə heyətinin düşməndən təmizlənən ərazilərə martın 1-2-də gerçəkləşən səfərləri də məhz bu siyasətin bariz ifadəsidir.

Səfər çərçivəsində Füzuli Beynəlxalq Hava Limanına, "Füzuli" yarımstansiyasına, Horadiz–Ağbənd avtomobil və dəmir yollarının tikinti sahəsinə, minatəmizləmə əməliyyatlarına, "Araz Vadisi İqtisadi Zonası"nın Sənaye Parkına, Zəngilan Beynəlxalq Hava Limanının tikintisinə, Zəngilan rayonunun Ağalı kəndinə və s. yerlərə baxış keçirilib.

Səfərdən sonra Şuşa şəhərində aidiyyəti dövlət qurumları rəhbərlərinin iştirakı ilə Qarabağda, o cümlədən, Şuşada icra olunan layihələr, aparılan bərpa, abadlıq-quruculuq işlərinin gedişi ilə bağlı vəziyyət müzakirə edilib.

Səfərin sonunda Baş nazir Əli Əsədovun və Prezident Administrasiyasının, Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli məqsədilə yaradılmış Əlaqələndirmə Qərargahının rəhbəri Samir Nuriyevin başçılığı altında aidiyyəti dövlət qurumlarının rəhbər şəxslərindən ibarət nümayəndə heyəti Xocavənd rayonuna səfər edib, Tuğ və Hadrutda aparılan quruculuq işləri ilə yerində tanış olublar.

Səfər zamanı nümayəndə heyəti Horadiz–Cəbrayıl–Mincivan–Ağbənd avtomobil yolunda aparılan minatəmizləmə prosesi və habelə Horadiz–Ağbənd dəmir yolunda görülən işlər barədə məlumatlandırılıb.

Xatırladaq ki, bütün bu tədbirlər Prezident İlham Əliyevin rəhbərliyi ilə region üçün çox böyük strateji əhəmiyyətə malik olacaq Zəngəzur dəhlizinin gerçəkləşdirilməsini şərtləndirir.

Bu dəhlizin reallaşdırılması dünya, eləcə də region ölkələri üçün mühüm önəm daşıyır. Bununla bağlı onu da qeyd edək ki, əlverişli coğrafi mövqeyə, zəngin enerji ehtiyatlarına malik Azərbaycan bu gün dünyada qlobal əhəmiyyətli layihələrin müəllifi kimi tanınır. Ölkəmiz həm də Şərqlə Qərbi, Şimalla Cənubu birləşdirən nəqliyyat qovşağı və logistik mərkəz rolunu oynayır.

İkinci Qarabağ müharibəsində əldə edilmiş böyük zəfərdən sonra yaranmış yeni reallıqlara uyğun addım atan dövlətimizin başçısı işğaldan azad edilən torpaqlarımızda gerçəkləşdirdiyi yeni layihələr isə Azərbaycanın geosiyasi və geoitqisadi imkanlarının getdikcə daha da yüksəlməsini şərtləndirir. Bu xüsusda yaxın gələcəkdə reallığa çevriləcək Zəngəzur dəhlizinin həm bölgə, həm də ümumilikdə Avrasiya arealı üçün böyük əhəmiyyəti danılmaz faktdır.

Ötən il fevralın 14-də İlham Əliyev Zəngəzur dəhlizinin açılması istiqamətində reallaşması nəzərdə tutulan layihələrdən birinin – Horadiz–Zəngilan–Ağbənd dəmir yolu xəttinin təməlini qoyaraq, Azərbaycanın 10 noyabr 2020-ci il tarixli bəyanatının müddəalarına sadiqliyini bir daha göstərdi.

Zəngəzur dəhlizinin bir parçası olan bu dəmir yolu xətti layihəsinin birinci mərhələsi üzrə nəzərdə tutulan tikinti işlərinin artıq 70 faizdən çoxu tamamlanıb. Dəmir yolu xəttinin ox üzrə uzunluğunun 110,4 kilometr olacağı nəzərdə tutulub. Burada ümumilikdə 300-ə yaxın mühəndis qurğusunun tikintisinin aparılması qərara alınıb və layihə üzrə işlərin 2023-cü ildə tamamlanması planlaşdırılıb.

Səfər çərçivəsində Füzuli Beynəlxalq Hava Limanında yaradılan şəraitlə tanışlıqdan sonra Füzulidə elektrik stansiyasına baxış olub. Burada Qarabağ və Şərqi Zəngəzur regionunun mövcud və 2022-2026-cı illər üzrə perspektiv elektrik təchizat sxemi ilə bağlı ətraflı məlumat verilib.

Xatırladaq ki, bölgədə elektrik xətlərinin çəkilməsi bərpa prosesinin ilk günündən diqqətdə saxlanılıb. Ölkə rəhbəri bununla bağlı müsahibələrinin birində minalanan, heç bir infrastrukturu olmayan sərhədboyu Arazdan Murov dağına qədər ərazilərdə elektrik təsərrüfatının yaradılması prosesinin uğurla aparıldığını, bütün azad edilən torpaqlarda bir ildə 7 yarımstansiyanın inşa olunduğunu və bütün bu yarımstansiyaların ümumi dairəvi şəbəkəyə qoşulduğunu böyük fədakarlıq kimi dəyərləndirib.

Burada onu da vurğulayaq ki, işğaldan azad edilən ərazilərdə "Yaşıl enerji" zonasının tətbiq edilməsinə dair konsepsiya da uğurla həyata keçirilir. Başqa sözlə, Qarabağ və Şərqi Zəngəzurda su, Günəş, külək enerjisindən istifadə edilməsi üçün lazımi şərait olduğundan alternativ və bərpaolunan enerji mənbələrindən istifadəyə xüsusi önəm verilir.

Səfər zamanı iqtisadiyyat naziri Mikayıl Cabbarov Zəngilan rayonunda "Araz Vadisi İqtisadi Zonası"nda və Ağdam Sənaye Parkında görülən işlər barədə məlumat verib.

Qeyd edək ki, hazırda Azərbaycanda fəaliyyət göstərən 5 sənaye parkının – Sumqayıt Kimya, Balaxanı, Mingəçevir, Qaradağ və Pirallahı sənaye parklarının sırasına dövlətimizin başçısının 2021-ci il 28 may tarixli müvafiq fərmanına əsasən Ağdam, 4 oktyabr tarixli fərmanı ilə "Araz Vadisi İqtisadi Zonası" sənaye parklarının da adları əlavə edilib. Beləliklə, respublikada bu cür qeyri-neft sənaye mərkəzlərinin sayı 7-yə çatdırılıb.

Vətən müharibəsində Azərbaycanın qazandığı böyük zəfərlə ərazi bütövlüyümüzün bərpa olunması, işğaldan azad edilmiş torpaqlarımızın ölkə iqtisadiyyatına reinteqrasiyası, regionda mövcud yeni reallıqlar və əməkdaşlıq imkanları, beynəlxalq və regional nəqliyyat-logistika dəhlizlərinin artan potensialı respublikamızın sürətli inkişafı üçün əlavə stimul yaradır. İqtisadi resursları, təbii ehtiyatları, enerji mənbələri, yeraltı metal filizi yataqları, termal suları, tikinti materialları üçün xammal bazası, nəqliyyat-tranzit, turizm imkanları və s. düşməndən təmizlənən ərazilərimizə investor marağını da artırır. Ağdamın Qarabağ regionundakı strateji coğrafi mövqeyi, Qarabağla digər bölgələrin qovuşuğunda yerləşməsi, insan resursları potensialı və infrastruktura çıxış imkanları şəhərin gələcəkdə Qarabağın sənaye mərkəzinə çevrilməsi imkanlarını genişləndirir. Ağdam Sənaye Parkının yaradılması da məhz bu məqsədə xidmət edir.

Bundan başqa, bölgədə "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkı və Ağdam Sənaye Parkının fəaliyyətə başlaması aqrar emal sənayesinin inkişafını təşviq edəcək. Bu sənaye parklarında yaradılacaq aqrar emal müəssisələri bölgədə kənd təsərrüfatının davamlı inkişafına əhəmiyyətli təsir göstərəcək.

Ağdam və "Araz Vadisi İqtisadi Zonası" sənaye parklarının yaradılması respublikamızda hazırda geniş miqyas alan sənayeləşdirmə siyasətinin Qarabağın bərpasında da xüsusi yer tutmasının bariz ifadəsidir. Çünki bu sahənin-sənayenin qeyri-neft sektorunun bölgədə inkişafı həm düşməndən təmizlənən ərazilərin canlandırılmasını sürətləndirir, həm də yeni iş yerlərinin yaradılmasını, burada məskunlaşan əhalinin məşğulluğunun təmin olunmasını şərtləndirir.

Nümayəndə heyətinin üzvləri Zəngilanda "Ağıllı kənd" ilə də tanış olublar. Xatırladaq ki, azad olunan ərazilərdə quruculuq işləri "Ağıllı kənd" və "Ağıllı şəhər" konsepsiyasına əsasən aparılır. Artıq Zəngilan rayonunda ilk "Ağıllı kənd"in inşası başa çatmaq üzrədir. Bu kənd düşməndən təmizlənən torpaqlara qayıdışın ilk məntəqəsi olacaq. Kəndin inşasında çoxsaylı innovativ yanaşmalar tətbiq olunub. Burada enerjiyə tələbat "Yaşıl enerji" sistemi ilə təmin ediləcək. Dayanıqlı enerji təminatı Həkəri çayı üzərində inşa olunan Arximed qurğusu tipli su elektrik stansiyaları vasitəsilə həyata keçiriləcək. Arximed qurğusu vasitəsilə alınan enerji hesabına kənd öz enerji tələbatını ödəyəcək.

"Ağıllı kənd"də evlərin dam hissəsində yerləşdirilən vaakum Günəş kollektorları vasitəsilə enerji toplanaraq evlərin və suyun qızdırılmasında istifadə ediləcək. Evlərdə quraşdırılacaq anodkatod sistemləri otaqları daha az enerji sərfiyyatı ilə qızdırmağa imkan verəcək. "Ağıllı kənd"də, həmçinin "Ağıllı kənd təsərrüfatı" sistemi üzrə camışçılıq ferması, "Ağıllı ictimai ferma" istifadəyə veriləcək, emal müəssisələri yaradılacaq, dəyər zənciri formalaşdırılacaq.

Azərbaycan Prezidentinin azad edilən ərazilərimizlə bağlı qarşıya qoyduğu ilk vəzifələrdən biri də bu torpaqların əkilib-becərilməsi ilə bağlı olub. Bu tapşırığa əsasən müharibənin başa çatdığı ilk günlərdən etibarən Kənd Təsərrüfatı Nazirliyi və digər aidiyyəti qurumlar tərəfindən düşməndən təmizlənən sahələrdə kənd təsərrüfatının gələcək inkişafının planlaşdırılmasına başlanılıb. Tapdaq altından çıxarılan ərazilərin aqrar potensialından səmərəli istifadə etmək, dağıdılan kənd təsərrüfatı infrastrukturunu yenidən qurmaq istiqamətində indiyədək həyata keçirilən layihələr zamanı ən müasir aqrar innovasiyalar tətbiq olunub. Bunu aqrar sahədə daha uğurlu nəticələr əldə etməklə bərabər, həm də qlobal iqlim dəyişikliyinin təbiətə, kənd təsərrüfatına mənfi təsirlərini minimuma endirmək zəruri edib.

**Vaqif BAYRAMOV, "Xalq qəzeti"**